

Saqif QARATORPAQ

* * *

Xəyallara nöqtə qoydum,
qapısını bağladım ümidlərin...
Göz yaşımla
tozunu yuyuram bənövşə dərdlərin.
Təzə-tər qəbirlər əkirəm
kirpiyimlə şumladığım torpaqda...
Ölüm qatarları fit verib getdi,
bizə yer yoxdu hələ...
Köks ötürdü hamı dərindən...
Mənliyim öldü içimdə,
gizlətməyə yer tapmadım...
Bu gün də özümü aldatdım,
yaşadım...
Qönçələr dəfn etdim bu gün,
göyərəcək gələn yaz...
Lalələr bitəcək qanından...
Başını qatdım xatirələrin,
yuxuya verdim sevgiləri.
Üzümə durmuşam mən də,
ölümü yubadıram hələ...

* * *

Bu ömürdə ikimiz
bircə şeir yazmışıq,
bir adı məhəbbətdi,
bir adı ayrılıqdı.
Dərdi ikiyə bölsək,
həsrət sonsuz qalıqdı...

İndi təzə sətirdən
başlayaqmı yazmağa?
Bilmirəm, razısanmı
bu səhrada azmağa?

Kirpiyin qələm olsun,
bir söz yazaq təzədən.
Bir hecası mən olum,
ikinci hecası sən.

* * *

Dünən də öldü belə...
Torpaq tökdüm gözünə.
Durub kənardan baxım
indi özüm özümə.

Yapışmışam yenə də
keçmişin ətəyindən.
Bu gün kirlənir, çıxır
köynək kimi əyindən.

Eh... məni də düşürər
zalım zamanın atı.
Dünəndən xatirədi
yolda qalan saatım...

* * *

Uşaq deyiləm ki, küsüb də gedəm,
Getməyə elə bir yerim də yoxdu.
Elə dilə tutdun, danışdım nə var,
Daha gizlətməyə sirrim də yoxdu...

Başımı qoymağa bir diz qalmadı,
Nə varsa, əlimdən aldı bu torpaq.
Elə söylənirəm özüm-özümə,
Gücüm deyinməyə yetirmiş ancaq.

Üzümü söykəyim kimə, ağlayım?
Gözümü sıxmağa bir çiyin yoxdu.
Nələrsə qazandım,varımdı... amma,
Heyif, öyünməyə heç nəyim yoxdu...

Nakam arzuların çəni gözümdə,
Kövrək ümidlərin itən yeriyəm.
Biçilmiş zəmiyəm, çalınmış otam,
Yıxılmış ağacın mən də biriyəm...

Mənə ərk edənlər elə çoxdu ki...
Hamı məndən küsür... mən kimdən küsüm?
Gizlicə gözümü sıxım qəlbimə,
Hamıdan xəbərsiz özümdən küsüm...

* * *

Yenicə çıxmışdıq elə küçəyə,
Bir qəfil yağışa düşdük, nə düşdük...
Elə islandıq ki yağışın altda,
Yayın ortasında birdən üşüdük.

Dodağın şeh düşən çiçəyə döndü,
Yapışdı əyninə sarı köynəyin...
Bilmirəm, əllərim nə üçün əsdi,
Ürəyim bəs niyə belə göynədi?

İslandı yağışda baxışlarımız,
Nəfəsin üzümə elə toxundu...
Özümdən xəbərim yoxdu, əllərim
Yuxuda bir zərif gülə toxundu.

Qarışdı yağışa saçının ətri,
Onun belə gözəl qoxusu yoxdu.
Eşqin göz yaşında islananların
Yağışda islanmaq qorxusu yoxdu.

Quşlar da sığındı öz yuvasına,
Hamı qaçıb getdi, boş qaldı küçə...
Yağışda islanan gün işığını
Öpüb qurudarıq biz bütün gecə.

* * *

Qanadım çıxmışdı dünən,
Təzə qalxmışdım göylərə.
Sənə güvənmişdim, heyif...
Alıb məni vurdun yerə.

Sənə sığınmışdım bir az,
Yağışa düşən quş kimi.
Dedim, bahar olub isit,
Demədim, dondur qış kimi.

Hamıdan üzdüm əlimi,
Üz tutmağa yox bir adam.
Üzdə hamının doğması,
Könüldə hər kəsə yadam.

Daha buz tutub ürəklər,
Yoxdu sevgi, yoxdu qılıq...
Gözlə, gəlirəm, təkliyim!
Sevin, səninəm, tənhalıq!

